


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 110(23.997)

15 iyun 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul edib.

Prezident İlham Əliyev çıxış edərək tarixi qələbə münasibətilə təbriklərini çatdırıb. Qeyd edib ki, Azərbaycanda idmanın inkişafı ilə bağlı çox işlər görülüb, ancaq bu günə qədər komanda idman növündə böyük uğurlara nail olunmayıb. Ona görə bu qələbənin çox böyük mənası var.

Dövlətimizin başçısı bildirib ki, istənilən idman növündə Avropa çempionatları çox gərgin keçir. Əlbəttə ki, Avropanın ən güclü komandaları orada təmsil olunur. Çempionat boyunca göstərilən həm peşəkarlıq, həm də böyük fədakarlıq bu qələbəni mümkün edib. Prezident İlham Əliyev əminliyini bildirib ki, bu qələbədən sonra gənc nəsil – uşaqlar, yeniyetmələr bu idman növünü seçəcəklər ki, Avropa çempionu olsunlar.

Sonda dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olunub, xatirə şəkli çəkdirilib.





# Milli Qurtuluş Günü müstəqil dövlətçiliyimizin və ərazi bütövlüyümüzün təminatıdır

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər vardır ki, həmin günlərdə onun gələcək taleyini düzgün müəyyən edən böyük başlanğıcların əsası qoyulub. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür. Bu gün Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə malikdir. Çünki dünyanın çoxsaylı ölkələrindən fərqli olaraq Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra onu yenidən itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Həmin dövrdə ölkəyə rəhbərlik edənlərin siyasi səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu Azərbaycanın mövcudluğunu, sözün həqiqi mənasında, sual altında qoymuşdu. Xaos, anarxiya, özbaşınalıq, torpaqlarımızın işğal olunması xalqımıza müstəqilliyin sevincini yaşamaq imkanı verməmişdi. Belə çətin və mürəkkəb bir dövrdə Azərbaycan xalqı üzünü ulu öndər Heydər Əliyevə tutaraq öz varlığını təmin etdi. ***"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır"***, – deyən ümummilli lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: ***"Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz"***. Dahi şəxsiyyətin müdrik siyasətinin nəticəsi idi ki, ölkəmiz bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu, müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və inkişafın təməli qoyuldu.

Tarix sübut edir ki, Azərbaycan hər zaman torpaqlarına göz dikənlərin, siyasi düşmənlərinin hədəfində olmuşdur. İstər çar Rusiyası dövründə, istərsə də ondan sonrakı dövrlərdə ölkəmiz anti-Azərbaycan qüvvələrinin təxribatları ilə üz-üzə qalmış, yalnız ötən əsrin 60-cı illərindən sonra xalqımızın dahi oğlu, ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində Azərbaycan bu cür təsirlərdən sığortalanmış, mövcudluğunu qoruyub saxlamışdır. Xüsusilə görkəmli dövlət xadimi Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunduğu zaman Azərbaycanın gələcək müstəqilliyi ilə bağlı mühüm addımlar atmış, ermənilərin əsassız torpaq iddialarının qarşısını qətiyyətlə almışdır. Sovet imperiyasının xalqımıza qarşı məkrli niyyət və planlarını puç edərək Qorbaçov rejimini kəskin tənqid edən dahi siyasətçi 1987-ci ildə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa vermişdir. Bununla da Azərbaycanın ağır və çətinliklərlə dolu dövrü başlanmış, tarixi torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilmiş, Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədilmişdir. Dahi şəxsiyyət Heydər Əliyev ali dövlət vəzifəsində olmasa da, Ona qarşı aparılan çirkin təbliğatlara baxmayaraq, həyatını təhlükə altında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə faciənin təşkilatçılarını elə Moskvanın özündə kəskin ittiham etmiş, sovet rəhbərliyinin yarıtmaz, hüquqazidd fəaliyyətinin iç üzünü açaraq bütün dünyaya çatdırmışdır. Bundan sonra ulu öndərin Moskvada yaşaması mümkün olmamış və görkəmli siyasi xadim 1990-cı il iyulun 20-də Bakıya, sonra isə Naxçıvana qayıtmışdır. Xalqımızın böyük oğlunun Naxçıvana qayıdışı ölkəmizin həyatında yeni mərhələnin başlanğıcına çevrilmiş, Naxçıvanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm qərarlar qəbul olunmuş və ölkəmizin müstəqilliyi yolunda ilk addımlar məhz bu qədim Azərbaycan diyarında atılmışdır.

Ümummilli lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illər Azərbaycanın müstəqil dövlət quruculuğu tarixində ən mühüm dövr sayılır. Məhz bu illərdə müstəqil Azərbaycanın təməl prinsipləri formalaşdırılmış, ölkəmizin gələcək inkişafının əsasları qoyulmuşdur. Həmin dövrdə Azərbaycanda baş verən hadisələr ölkəni faktiki olaraq müstəqilliyini itirmək həddinə gətirib çıxarmış, vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də baş verən Gəncə hadisələri isə qardaş qırğını ilə bərabər, ölkəni real olaraq parçalanmaq təhlükəsi ilə də üz-üzə qoymuşdu. Məhz belə bir çətin dövrdə xalqın tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıtmışdır. Bununla da ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyulmuş və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Müasir tariximiz, şanlı tariximiz 1993-cü ildən başlayır. O ildən 2003-cü ilə qədər Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Mütərəqqi Konstitusiya qəbul edilmişdir, ümumi dövlət quruculuğu prosesi başlamışdır, əsaslı siyasi və iqtisadi islahatlar reallaşmışdır, Azərbaycan dünya miqyasında özünü tanıtdıra bilmişdir və beynəlxalq təşkilatlara üzv olmuşdur"***. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov isə bu günün tarixi mahiyyətini belə xarakterizə etmişdir: ***"Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə QAYIDIŞINDA tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskar missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edir"***.

Görkəmli dövlət xadiminin ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə mühüm işlər görüldü. Qısa müddətdə daxili sabitlik bərpa edildi, cəbhədə atəşkəsə nail olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində potensial baza yaradıldı. Eyni zamanda iqtisadi sahədə mühüm addımlar atıldı, xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən layihələrin həyata keçirilməsinə başlanıldı. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm təməli qoyuldu. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi. Bununla bərabər, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqəsi təmin olundu, müasir hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Nəticədə, çox qısa müddətdə müstəqil Azərbaycan özünün sosial, iqtisadi, siyasi və mədəni həyatında ciddi uğurlar qazandı.

Ulu öndər Heydər Əliyevin parlaq ideyalarını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev siyasi fəaliyyətini ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparmasına, hər bir sahədə xalqın mənafeyinin qorunmasına həsr etmişdir. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng iqtisadi layihələrlə bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycan iqtisadiyyatı artıq tam mənası ilə şaxələndirilmiş iqtisadiyyatdır. Dünyanı bürüyən qlobal böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı təmin edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş və ciddi uğurlara imza atmışdır. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Ölkə başçısının təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin, nüfuzun göstəricisidir. Elə bu nüfuzun, gücün nəticəsidir ki, Azərbaycan Vətən müharibəsində 44 gün ərzində mənfur erməni ordusunu tamamilə darmadağın edərək 30 ilə yaxın işğalda saxlanılan torpaqlarını qəsbkarlardan azad etdi. Əgər ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyini parçalanmaqdan, məhv olmaqdan qoruyub xilas etdisə, cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü və müstəqilliyinin tamlığını bərpa etdi.

Ardı 2-ci səhifədə

Ötən əsrin sonlarından blokada vəziyyətində yaşamağa məcbur edilmiş Naxçıvan Muxtar Respublikası da QURTULUŞDAN öz payını alaraq böyük inkişaf yolu keçmişdir. Əgər muxtar respublika 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin əvəzolunmaz xidmətləri sayəsində işğal olunmaq təhlükəsindən qurtularaq öz mövcudluğunu qoruyub saxlamışdısa, sonrakı dövrlərdə Heydər Əliyev ideyalarına sadiqlik bu qədim Azərbaycan diyarını ölkəmizin lider regionuna çevirmişdir. Bir zamanlar enerji, nəqliyyat, rabitə və digər kommunikasiya əlaqələrinin kəsildiyi, qida məhsullarının, bütövlükdə, idxaldan asılı olduğu muxtar respublika bu gün özünün sürətli inkişaf dövrünü yaşamaqdadır. Vaxtilə neft lampasının zəif işıqlarına möhtac olan muxtar respublikada indi elektrik enerjisinə olan tələbatın 60 faizə yaxını bərpa olunan enerji ilə təmin edilir. Ötən əsrin 90-cı illərində erməni təcavüzünə qarşı doludağıdan topların ümidinə qalmış qədim diyarı bu gün Silahlı Qüvvələrimizin ən böyük hərbi birləşmələrindən biri olan Əlahiddə Ümumqoşun Ordu qoruyur. Və yaxud blokadanın ən ağır illərində əhalinin ərzaq təminatını yalnız idxal hesabına təmin edən muxtar respublika bu gün 384 növdə məhsul istehsal edir. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Sürətli iqtisadi inkişafın nəticəsidir ki, təkcə bu ilin yanvar-aprel aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,2 faiz artıb. Muxtar respublikada iqtisadi nailiyyətlərdə hər il ondan əvvəlki illə müqayisədə böyük irəliləyişlər müşahidə olunur. Elə buna görədir ki, 2017 və 2018-ci illərdə "Caspian European Club"un dəstəyi ilə fəaliyyət göstərən "Caspian Energy İnternational Media Group"un hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası iqtisadi regionlar arasında ən yüksək bal toplayaraq lider olub.

Bu gün Milli Qurtuluş Gününün bəhrələri bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz və digər bölgələrimizin simasında aydın görünür. İndi muxtar respublikanın şəhər, rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri də Naxçıvanın hərtərəfli inkişafını özündə təcəssüm etdirir. Təsadüfi deyil ki, blokada şəraitində, həm də çox qısa bir dövrdə belə bu inkişaf və tərəqqiyə nail olmaq dünyada blokada şəraitində inkişaf modeli kimi qiymətləndirilir. Ötən il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlmiş ölkə başçısı cənab İlham Əliyev bu inkişafı ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb"*** fikirləri ilə bir daha təsdiq etdi.

Bu gün Azərbaycan Milli Qurtuluşunun növbəti ildönümünü qeyd edir. Ötən dövr onu göstərdi ki, Azərbaycanın işıqlı gələcəyi yalnız dahi şəxsiyyət Heydər Əliyev yolundan keçir. O yol ki bizi Ağdama, Kəlbəcərə, Füzuliyə, Zəngilana apardı… O yol ki dünya azərbaycanlılarını Şuşada görüşdürdü… O yol ki qədim Naxçıvanı Ana Vətənə bağlayacaq… Və qalib xalq olaraq bundan sonra bu yolda atdığımız hər bir addım müstəqilliyimizi daha da gücləndirəcək! Azərbaycanın bugünkü siyasi, iqtisadi uğurları, hərbi qüdrəti, dünyada böyük nüfuz qazanaraq mühüm qlobal problemlərin həllində qətiyyətli söz sahibinə çevrilməsi məhz Milli Qurtuluşun bəhrələridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"15 İyun – Milli Qurtuluş Günü Azərbaycan xalqının və dövlətinin həyatında dönüş tarixidir. Əgər Qurtuluş Günü olmasaydı, nə Azərbaycan olacaqdı, nə də ölkəmiz bugünkü inkişaf səviyyəsinə gəlib çata biləcəkdi. Ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə ölkəmizdə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan yenidən Azərbaycana qaytarıldı. Nəticədə, sabitlik, inkişaf və tərəqqi təmin edildi, Azərbaycan inkişaf etmiş dövlətlər sırasında layiqli yerini tutdu".***

**"Şərq qapısı"**

---

*İcmal*

## Ümummilli lider Heydər Əliyevin müdrik ideyaları müstəqil Azərbaycanın siyasi, ideoloji dayağıdır

### *Ötən ayın ictimai-siyasi mənzərəsində əksini tapan Naxçıvanın inkişaf reallıqları da bunu bir daha təsdiq edir*

*Ümummilli liderimiz Heydər Əliyevin müstəqillik, inkişaf strategiyasının, ümummilli mənafelərin dövlət siyasətinə çevrilməsinin bəhrəsidir ki, Azərbaycan proqressiv inkişaf yolunda inam və qətiyyətlə irəliləyir. Bu, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, bu böyük ideyaların sədaqətlə yaşadılması nəticəsində qazanılan möhtəşəm uğurlardır:* ***"Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk".***

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində qazanılan nailiyyətlər də ulu öndərin uzaqgörən siyasətinin bəhrələridir. Bu dinamik iqtisadi tərəqqidə enerji təhlükəsizliyinin təmin olunması xüsusi yer tutur. Aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, bu gün muxtar respublikada elektrik enerjisinə olan tələbatın 60 faizə yaxını bərpa olunan enerji ilə təmin edilir. Bu işlərin davamı olaraq Şərur rayonunun Zeyvə kəndində Günəş Elektrik Stansiyasının tikintisi qısa müddətdə və yüksək keyfiyyətlə aparılmış, hər birinin gücü 330 vatt olan 9108 "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 60 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuşdur. Mayın 5-də – ulu öndərin anadan olmasının 99 illiyi ərəfəsində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Muxtar respublika rəhbəri əlverişli təbii resurslar hesabına alternativ enerji mənbələrindən istifadənin əhəmiyyətindən bəhs etmişdir. Qeyd olunmuşdur ki, bu istiqamətdə görülən işlərdən sonra muxtar respublikanın enerji tələbatı tamamilə bərpa olunan enerji hesabına ödəniləcəkdir.

Ali Məclisin Sədri Zeyvə Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə kollektivə təbriklərini çatdırmış, əməyi olanlara təşəkkür etmiş, "Pure Energy Development" SARL şirkətinin rəhbərinə stansiyanın tikintisindəki səmərəli fəaliyyətinə görə təşəkkürünü bildirmiş, əməkdaşlıqdan məmnunluğunu ifadə etmişdir. Sonra stansiyaya baxış olmuşdur. Yeni Günəş Elektrik Stansiyasının layihə gücü 8 meqavata çatdırıldığı üçün il ərzində 12 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək, bununla da muxtar respublikanın Günəş Elektrik stansiyalarının gücü 36 meqavata, illik istehsal gücü isə 55 milyon kilovat-saata çatdırılacaqdır. Bu da, ümumilikdə, muxtar respublikada enerji istehsalının 11 faizə yaxınını təşkil edəcəkdir. Şərur rayonunda qurulan 8 meqavatlıq Günəş Elektrik Stansiyası isə rayonun elektrik enerjisinə olan tələbatının 17 faizini təşkil edəcəkdir. Ali Məclisin Sədri Şərur rayonunda tikiləcək 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının layihəsinə və əraziyə baxmış, işlərə başlanılması barədə tapşırıqlar vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən biri də Azərbaycanın təhlükəsizliyinin və dövlətçiliyinin etibarlı təminatı olan xarici siyasət strategiyasını formalaşdırmaqdır. Bu gün Azərbaycanın müstəqil dövlət kimi inkişafının, dünya siyasət arenasında etibarlı nüfuz qazanmasının və qətiyyətli söz sahibinə çevrilməsinin əsasında müstəqil Azərbaycanın ulu öndər tərəfindən müəyyənləşdirdiyi düşünülmüş xarici siyasət dayanır. Mayın 7-də Naxçıvan Dövlət Milli Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda konfrans keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda keçirilən konfransın iştirakçılarını salamlamış, çıxışında ulu öndərin ölkəmizə hər iki rəhbərliyi dövründə Azərbaycanın xarici əlaqələrinin inkişafı və beynəlxalq münasibətlər sisteminə inteqrasiyasına nail olunması istiqamətində misilsiz fəaliyyətindən bəhs etmişdir. Qeyd olunmuşdur ki, ötən əsrin 70-80-ci illərində imperiya tərkibində olmasına baxmayaraq, ümummilli liderin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq iqtisadi, mədəni və elmi-texniki əlaqələri genişlənmiş, 1990-1993-cü illərdə isə dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikasında müstəqil Azərbaycanın xarici siyasət kursunun əsasını qoymuşdur. Ulu öndər Heydər Əliyev blokada və işğal təhlükəsi qarşısında olan Naxçıvanda böyük xilaskarlıq missiyasına başlamışdı. Muxtar respublika rəhbəri diqqətə çatdırmışdır ki, ümummilli liderin uzaqgörən siyasətinin nəticəsi olaraq Naxçıvanda müstəqilliyin və milli dövlətçiliyin bərpası tədbirləri daxili və xarici siyasət müstəvisində paralel şəkildə aparılmış, gələcək dövlət müstəqilliyi quruculuğuna xidmət edən mühüm tarixi qərarlar qəbul edilmişdir. Ulu öndərin siyasi fəaliyyətinin nəticəsi olaraq 1992-ci ildə Türkiyə Respublikası ilə "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu", İran İslam Respublikası ilə "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokol" imzalanmış, Azərbaycan-Türkiyə və Azərbaycan-İran münasibətlərinin əsası qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında xarici siyasətlə bağlı qəbul edilən qərarlar sonrakı dövrdə ölkəmizin diplomatik münasibətlər sisteminin mühüm tərkib hissəsinə çevrilmişdir.



Ali Məclisin Sədri demişdir: ***"Ulu öndər Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi xarici nümayəndələrlə keçirilən görüşlər zamanı Azərbaycan həqiqətlərini, ölkəmizin üzləşdiyi siyasi və iqtisadi böhranı, xüsusilə də torpaqlarımızın işğal faktını dünya ölkələrinin və beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq məsələyə ədalətli mövqe tələb etmişdir. O dövrdə Naxçıvanın dünyanın böyük dövlətlərinin və mötəbər beynəlxalq təşkilatlarının diqqət mərkəzinə çevrilməsi bir tərəfdən mövcud tarixi-siyasi şəraitlə bağlı idisə, digər əsas səbəb dünya şöhrətli siyasi xadim Heydər Əliyev şəxsiyyətinə göstərilən ehtiramın daha bir ifadəsi idi. Həmin dövrdə Azərbaycana rəhbərlik edənlər isə Naxçıvana biganə münasibətlərini davam etdirir, işğal təhlükəsi və blokada çətinliklərinin aradan qaldırılması istiqamətində heç bir təşəbbüs göstərmir, hakimiyyətə sahiblənən xalq cəbhəsi isə yarıtmaz siyasətinə sadiq qalaraq, hətta Naxçıvanın beynəlxalq müqavilələrlə təsbit olunmuş muxtariyyət statusunun ləğvi kimi absurd bəyanatlar səsləndirirdi".***

Çıxışda vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin 1992-ci ildə Türkiyəyə səfəri zamanı beynəlxalq Qars müqaviləsini yenidən gündəmə gətirməsi təkcə Naxçıvanın muxtariyyət statusunun deyil, bütövlükdə, ölkəmizin ərazi bütövlüyünün qorunması sahəsində həyata keçirilən tədbir kimi böyük siyasi əhəmiyyətə malikdir.

Bildirilmişdir ki, 1993-2003-cü illərdə ölkə həyatının başqa sahələri kimi, xarici siyasət kursu da tamamilə yenidən işlənildi, xarici dövlətlərlə bərabərhüquqlu və ölkəmizin mənafeyinə xidmət edən ikitərəfli əlaqələr yaradıldı, Azərbaycan dünyanın mötəbər beynəlxalq təşkilatlarına üzv seçildi. Qısa müddətdə Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrildi.

Ali Məclisin Sədri vurğulamışdır ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfər də ölkəmizin hərbi qüdrəti ilə yanaşı, həm də ümummilli liderimiz Heydər Əliyevin böyük müdrikliklə işləyib hazırladığı və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət strategiyasının qələbəsidir. Bu qələbənin ən mühüm diplomatik nəticələrindən biri isə 30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə quru əlaqəsinin yaradılması, regionda kommunikasiyaların açılması olacaqdır.

***"Ümummilli lider Heydər Əliyev məktəbinin özünəməxsusluğu ondadır ki, o, dünən olduğu kimi, bu gün də, gələcəkdə də müstəqil Azərbaycanın əsas siyasi və ideoloji dayağıdır"***, – deyən Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyev yolunun davam etdirilməsi yolunda hər kəsə uğurlar arzulamış, "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda keçirilən konfransa mühüm əhəmiyyət verdiyini qeyd etmiş, təşəbbüskarlara və iştirakçılara təşəkkürünü bildirmişdir.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək müstəqil Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin xarici siyasət strategiyasından, Azərbaycanın genişlənən, hərtərəfli beynəlxalq əlaqələrinin əsasında ümummilli liderin xarici siyasət konsepsiyasının durmasından bəhs etmişdir. Qeyd olunmuşdur ki, hazırda ölkəmizin dünyanın 77 ölkəsində diplomatik nümayəndəliyi, 21 konsulluğu fəaliyyət göstərir. Həmçinin Azərbaycanda 88 ölkənin və beynəlxalq təşkilatın nümayəndəlikləri, 15 xarici dövlətin konsulluqları akkreditə olunub.

Sonra ümummilli lider Heydər Əliyevə həsr edilmiş videoçarx nümayiş olunmuş, konfrans bədii hissə ilə davam etmişdir.

İkinci Vətən müharibəsində Vətəni müdafiə və beynəlxalq humanizm prinsiplərinin qorunması naminə erməni vandalları və işğalçıları üzərində tarixi Qələbə qazanılması xalqımızın terror, qətliam, işğalçılıq əleyhinə tarixi mübarizə ənənələrinin bu gün ölkəmizdə dövlət siyasətinin əsasını təşkil etdiyini bütün dünyaya sübut etmişdir. Tarixən sülhün, əmin-amanlığın keşikçisi olan Azərbaycan xalqının faşizm üzərində qələbənin əldə edilməsində də böyük xidmətləri olmuşdur. 1941-1945-ci illər müharibəsində xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirmiş, faşizm üzərində qələbəyə mühüm töhfə vermişdir. Lakin ötən əsrin 90-cı illərində hakimiyyətə gələn səriştəsiz rəhbərlərin tariximizə biganə və laqeyd münasibətinin növbəti təzahürü idi ki, xalqımızın faşizmə qarşı ön və arxa cəbhədəki mütəşəkkil mübarizəsi, göstərdiyi hərbi rəşadət və qəhrəmanlıq az qala unudulmaqda idi. Ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 9 may Qələbə Günü kimi rəsmiləşdirilərək dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının imtiyazları və statusları bərpa olunmuşdur. Ümummilli liderimizin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hər il olduğu kimi, 2022-ci ildə də "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalamışdır. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin olunması, tarixi Qələbə qazanılması dövlətçilik və hərb tariximizə qızıl hərflərlə yazılmaqla faşizm əleyhinə qəhrəmanlıq mübarizəsi aparan sələflərimizin layiqli davamçısı olduğumuzu bir daha sübut etdi.

1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 77-ci ildönümü Naxçıvan Muxtar Respublikasında qeyd olunmuşdur. Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gəlmiş, veteranlarla görüşmüş, onları qələbə münasibətilə təbrik etmişdir. Sonra Ali Məclisin Sədri abidə önünə

*Ardı 3-cü səhifədə*

gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirmişdir. Həmin gün Naxçıvan Muxtar Respublikasının rayonlarında da 1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 77-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

Milli müstəqilliyimizin bəhrələrindən biri də Azərbaycanın Naxçıvan Muxtar Respublikasının elm, təhsil, iqtisadiyyat, turizm və digər sahələrdə çoxcəhətli beynəlxalq əlaqələrinin inkişafıdır. Bu tərəfdaşlıq Naxçıvanın Azərbaycanın inkişaf edən muxtar diyarı kimi dünyada tanıdılmasına, bu diyara dünyəvi marağın daha da artmasına səbəb olur. Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikasının Ərzurum Atatürk və Van Yüzüncü İl universitetlərinin rektorları ilə görüşmüşdür. Ali Məclisin Sədri qonaqları salamlamış, vaxtilə hər iki universitetdə olduğunu xatırlatmışdır. Azərbaycan-Türkiyə əlaqələrindən bəhs edən Ali Məclisin Sədri təhsil sahəsindəki əməkdaşlığa diqqəti çəkmiş, Naxçıvanda Türkiyədən olan tələbələrin təhsil aldığını bildirmiş, universitetlər arasında qarşılıqlı təcrübə, eləcə də müəllim-tələbə mübadiləsinin, ikili diplom layihələrinin həyata keçirilməsinin əhəmiyyətini vurğulamışdır.

Mayın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türk Tarix Qurumunun sədri Birol Çətin ilə görüşmüşdür. Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə Türk Tarix Qurumu arasında imzalanan əməkdaşlıq protokolunun əhəmiyyətini vurğulamış, ortaq türk tarixinin yazılmasının vacibliyini diqqətə çatdırmışdır. Qədim türk torpağı olan Naxçıvan tarixinin Nuh Peyğəmbərlə bağlı olduğunu bildirən Ali Məclisin Sədri Anadolunun türkləşməsində və İslam dininin o ərazilərdə yayılmasında Naxçıvanın rolundan danışmışdır. Ali Məclisin Sədri müstəqillik illərində Naxçıvan tarixinin öyrənilməsi sahəsində görülən işlərdən bəhs etmiş, Naxçıvanşünaslığın mühüm elmi nailiyyətlərlə zənginləşdirildiyini qeyd etmiş, birgə əməkdaşlığın faydalı olacağına əminliyini bildirmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin çətin, məsuliyyətli, lakin şərəfli və mənalı ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti xalqa və dövlətçiliyə xidmət nümunəsidir. Ulu öndərimiz bugünkü müstəqil Azərbaycanın qurucusu və memarı, Azərbaycanın tərəqqi və inkişaf yolunun müəllifi kimi xalqımızın qəlbində əbədiləşmişdir. Bu gün ümummilli lider Heydər Əliyevin inkişaf və tərəqqiyə, milli rifaha xidmət edən dövlətçilik strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmiş, Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası da inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Gündən-günə inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan bütün nailiyyətlərin əsasında məhz ümummilli liderimizin ideyalarına sarsılmaz sədaqət dayanır.

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənabVasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir. Muxtar respublika rəhbəri demişdir: ***"Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!"***

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Heydər Əliyev Muzeyinin fondunda saxlanılan rəsm əsərləri və xalçalardan ibarət sərgiyə baxmışlar.

Bu gün Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyev siyasətinin bəhrələri olan davamlı inkişaf və yüksək rifahın şahididir. Muxtar respublikanın davamlı və çoxcəhətli sosial-iqtisadi inkişafı bu diyarın digər bölgələri kimi, Şərur rayonunu da yeni inkişaf mərhələsinə çıxarmışdır. Rayon mərkəzində və kəndlərdə aparılan geniş quruculuq işləri, yaşayış səviyyəsinin yüksəlməsi, yeni iş yerlərinin açılması məskunlaşmanın artmasına səbəb olmuşdur. Görülən işlər rayon sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, onların qurub-yaratmaq əzmini daha da artırır.

Mayın 10-da – ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümündə Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Ali Məclisin Sədri ulu öndərin siyasi xəttinin Şəruru da inkişafa qovuşdurduğunu bildirərək demişdir ki, Şərur rayonu yarandığı gündən ötən dövrdə heç vaxt bu qədər inkişaf etməmiş, rayonda bu qədər geniş quruculuq işləri aparılmamış, aqrar sahə belə inkişaf etdirilməmişdir. Vurğulanmışdır ki, Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binasında kollektivlər yaradılan şəraitdən istifadə edərək əhaliyə nümunəvi xidmət göstərməli, hər kəs öz vəzifəsini layiqincə yerinə yetirməli, dövlətin qayğısına layiqli işlə cavab verməlidir.

Sonra binaya baxış olmuşdur. Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binada 6 təşkilat fəaliyyət göstərəcək. Yeni Azərbaycan Partiyası Şərur Şəhər Ərazi İlk Partiya Təşkilatı, Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik, Şərur Şəhər Bələdiyyəsi, Şərur rayon 1 saylı Notariat Ofisi və statistika işçilərinin və Şərur rayon Ağsaqqallar Şurasının fəaliyyəti üçün burada müasir şərait yaradılmışdır. Sonra Ali Məclisin Sədri Şərur Şəhər Mərkəzi Stadionunda olmuş, burada həyata keçiriləcək yenidənqurma işləri ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Muxtar respublikada mədəniyyətin hərtərəfli inkişafı təmin edilmişdir. Şərur Rayon Mədəniyyət Sarayının inşası da mədəniyyətə göstərilən qayğının bariz nümunəsidir. Mayın 10-da Şərur Rayon Mədəniyyət Sarayı istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş, rayonda müxtəlif tədbirlərin hazırlanıb keçirilməsi, muxtar respublikanın teatr və musiqi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramlarının təşkil olunması ilə bağlı mühüm tapşırıqlar vermiş, bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamışdır. Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuş, "Şərur" Xalq Yallı Ansamblının çıxışı olmuş, Ali Məclisin Sədri ansamblın üzvləri ilə görüşərək tövsiyələrini vermişdir.

Son illər muxtar respublikada yenidən qurulan və ya tikilərək istifadəyə verilən yeni yaşayış binaları vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də məskunlaşmanın və yüksək rifahın göstəricisidir. Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur şəhərində tikiləcək yeni yaşayış binasının layihəsinə və əraziyə baxmış, tikinti işlərinə başlanılması barədə tapşırıqlar vermişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli müvafiq Fərmanına əsasən yaradılmaqda olan Şərur Sənaye Məhəlləsində görülən işlərlə maraqlanmışdır. Bildirilmişdir ki, sənaye məhəlləsinin ərazisində 24 istehsal sexi, 6 inzibati və 5 texniki otaqdan ibarət bina və 3 istehsal korpusu inşa olunmuşdur. İlkin olaraq 2 şirniyyat, 1 balın qablaşdırılması və 1 trikotaj malları istehsalı sahələri üzrə mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən müraciət daxil olmuşdur. Gələcəkdə bu sahələrin reallaşdırılması və fəaliyyətə başlaması istiqamətində, eyni zamanda inzibati binanın istehsal bloklarında corab və digər istehsal sahələri kimi müvafiq sahibkarlıq fəaliyyətinin təmin edilməsi istiqamətində işlər aparılır. 12 blokdan ibarət birinci istehsal korpusunda ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel olmaqla, 2 mebel müəssisəsi fəaliyyət göstərir. Korpusun digər 6 blokunda isə rayonun mövcud imkanlarına uyğun olaraq yerli resurslardan istifadə edilməsi müvafiq sahələr üzrə sahibkarların cəlb olunması üzrə araşdırmalar aparılır. 2 hissədən ibarət ikinci korpusda məktəbli ləvazimatları, kağız kisə və karton tara müəssisələri fəaliyyət göstərəcəkdir. Üçüncü korpusda isə bitki yağı istehsalı zavodunun qurulması istiqamətində işlər davam etdirilir. Ali Məclisin Sədri Sənaye məhəlləsində, əsasən, yerli xammala əsaslanan müəssisələrin qurulması barədə tapşırıqlar vermişdir.

Muxtar respublikada əhaliyə nəqliyyat xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərin davamı olaraq Çin Xalq Respublikasının istehsalı olan "King Long" markalı elektrobuslar alınıb gətirilmişdir. Yeni elektrobuslarda 12 sürücü işlə təmin olunacaqdır. Elektrobuslar müasir sərnişindaşıma xidməti göstərməklə bərabər, ekologiyanın çirklənməsinin qarşısını almaq baxımından da əhəmiyyət kəsb edir. Mayın 13-də "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsə 6 yeni elektrobus təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş, avtobuslara texniki xidmətin vaxtında göstərilməsinin təmin edilməsi, elektriklə işləyən avtobuslar üçün kadr təminatının diqqətdə saxlanılması, elektriklə işləyən xidməti avtomobillərin alınmasının təmin olunması ilə bağlı tapşırıqlar vermişdir. Muxtar respublika rəhbəri demişdir ki, şəhərdaxili marşrutlarda bundan sonra elektriklə işləyən avtobuslara üstünlük verilməli, eyni zamanda yaxın məsafələrdə öz xidmətini həyata keçirən dövlət orqanları üçün də elektriklə işləyən avtomobillər alınmalıdır. Çünki bu nəqliyyat vasitələri həm ekoloji və rentabellik, həm də mütəxəssis yetişdirmək baxımından çox əlverişlidir. Sonra elektrobuslara baxış olmuşdur.

Sərhədlərin etibarlı mühafizəsi dövlət müstəqilliyinin əsas şərtlərindəndir. Bu gün muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasını da əhatə etmişdir. Silsilə tədbirlərin davamı olaraq mayın 14-də "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında əsgər yataqxanası və idman kompleksi yenidənqurma işlərindən sonra təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Ali Məclisin Sədrinə yenidənqurma işləri aparılan 320 yerlik əsgər yataqxanası və diviziyanın idman kompleksində görülən işlər barədə məlumat verilmişdir. Sonra diviziyada tikiləcək hamam-camaşırxana kompleksinin ərazisinə və layihəsinə baxış olmuşdur. Ali Məclisin Sədri tikinti işlərinə başlanılması və ətrafda yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ildə yaradılan Naxçıvan Sərhəd Dəstəsinin keçdiyi yola nəzər salmış, onun inkişaf edərək "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına çevrildiyini və muxtar respublikada dövlət sərhədlərimizin etibarlı mühafizə edildiyini diqqətə çatdırmışdır. Muxtar respublika rəhbəri şəxsi heyətə təşəkkür etmiş, idman kompleksindən sərhədçi ailələrinin də istifadə etməsi, müxtəlif idman növləri üzrə daxili yarışların keçirilməsi barədə tapşırıqlar vermişdir.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da uğurla davam etdirilir. Muxtar respublikada sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmış, dövlət dəstəyi nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilmişdir. Hazırda muxtar respublikada otel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır. Bu istiqamətdə növbəti addım atılmış, mayın 19-da Naxçıvan şəhərində yeni xidmət kompleksi – "Naxçıvan Saray" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yeni xidmət kompleksində yaradılan şəraitlə maraqlanmışdır. Məlumat verilmişdir ki, zirzəmi qatı ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 45 otaqdan ibarət müasirtipli otel, şadlıq sarayı, ofis, 80 yerlik restoran, mətbəx və avtopark fəaliyyət göstərəcəkdir.

Ali Məclisin Sədri "Naxçıvan Saray" MMC-nin fəaliyyətə başlaması münasibətilə gələcək istifadəçiləri və kollektivi təbrik edərək yeni xidmət sahələrinin yaradılmasının ölkəmizin mədəni inkişafının göstəricisi olduğunu vurğulamış, əməyi olanlara təşəkkürünü bildirmişdir. Muxtar respublika rəhbəri demişdir ki, müasir dövrün tələbi insanlara müxtəlif xidmətləri bir yerdə göstərməkdən ibarətdir. Bu saray da bir neçə xidməti eyni vaxtda yerinə yetirəcəkdir. Gələcəkdə sarayda digər xidmət sahələri də yaradılacaq və kompleks formada fəaliyyət göstərəcəkdir. Bu da ilkin mərhələdə 63 nəfərin işlə təmin olunduğu kompleksdə əlavə iş yerlərinin açılmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri yeni xidmət kompleksinin muxtar respublikanın həyatında önəmli yer tutacağına əminliyini bildirmiş, yaradılanların qorunması və qurulanlardan səmərəli istifadə olunması, cəmiyyətin tanıdılması və xidmətin təşkili barədə tapşırıqlar vermişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 15-də "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikası Qanununu təsdiq etmiş, həmin Qanuna əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilmişdir. Ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyev Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinə qovuşması istiqamətində mühüm işlər görmüş, tarixi-mədəni irsə və milli soykökə qayıdışın əsasını qoymuş, milli kadr hazırlığına başlanılmış, iqtisadi potensial formalaşdırılmışdır. Ümummilli liderimizin Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər isə dövlət müstəqilliyi üçün konkret tədbirlərin görüldüyü, mühüm tarixi qərarların qəbul edildiyi dövrdür. Ümummilli liderimiz Azərbaycanı bir əsrdə yenidən qazandığı dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etmiş, Azərbaycanı regionun lider dövlətinə, sülhün, sabitliyin və inkişafın təminatçısına çevirmişdir. Bu gün müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutur. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi müstəqillik tariximizin ən möhtəşəm nailiyyəti, ümummilli lider Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalı 69, kənd təsərrüfatı məhsulları 15, sənaye istehsalının həcmi 117 dəfə artmış, 100 minə yaxın yeni iş yerləri açılmış, yaşayış məntəqələri böyümüş, 1 rayon, 4 qəsəbə və 2 şəhər yaranmışdır. Tikinti-quruculuq işləri geniş vüsət almış, 233 elm və təhsil ocağı, 364 mədəniyyət, 252 səhiyyə, 29 idman obyekti, 353 inzibati bina, 1346 istehsal və xidmət sahəsi tikilmiş, 1112 müxtəlif təyinatlı obyekt yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, bütün yaşayış məntəqələrini əhatə edən müasir yol-nəqliyyat və sosial infrastruktur istifadəyə verilmişdir.

Şərəfli və keşməkeşli mübarizə yolu olan müstəqillik tariximiz haqqında bu məlumatlar mayın 27-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Müstəqillik Gününə həsr olunmuş tədbirdə, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin çıxışında öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə iştirak etmişdir. Tədbirdə Naxçıvan Dövlət Universiteti Simfonik Orkestrinin konserti olmuşdur. Ali Məclisin Sədri səhnə arxasına keçərək Naxçıvan Dövlət Universiteti Simfonik Orkestrinin üzvləri ilə görüşmüş, Müstəqillik Günü münasibətilə təbriklərini çatdıraraq simfonik orkestrin üzvlərinin müstəqillik dövrünün yetirmələri olduğunu, muxtar respublikada musiqi təhsili sahəsində mühüm işlər görüldüyünü vurğulamışdır. ***"Mədəniyyət hər bir ölkənin inkişafının göstəricisidir"***, – deyən Ali Məclisin Sədri simfonik orkestrin çıxışını yüksək qiymətləndirmiş, kollektivə uğurlar arzulamışdır.

Həmin gün Ali Məclisin Sədri Heydər Əliyev Sarayında yerləşən Miniatür Kitab Muzeyinə və Naxçıvan Dövlət Rəsm Qalereyasına baxmış, miniatür kitabların çapı, qalereyanın yeni əsərlərlə zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

*Ötən ayın ümumi ictimai-siyasi təhlili bunu deməyə əsas verir ki, Azərbaycan, onun qədim, eyni zamanda müasir tərəqqi yoluna qovuşmuş muxtar diyarı Naxçıvanda ümummilli lider Heydər Əliyevin arzuları uğurla reallaşmaqdadır. Bu gün hər bir azərbaycanlı müdrik Heydər Əliyev ideyalarının bəhrəsini yaşayır və bu ideyaları sədaqətlə yaşadır. Bu isə daha xoşbəxt və firavan gələcəkdən soraq verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Gömrük orqanları ilə karqo şirkətləri arasında görüş

Gömrük orqanları ilə karqo şirkətləri arasında əməkdaşlığın artırılması istiqamətində görülən işlərin müzakirəsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən iclası komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli açıb. O, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli Qərarına əsasən muxtar respublikada sürətli poçt xidmətlərinin təşkili, müvafiq qaydada lisenziya almış şirkətlər tərəfindən fəaliyyətin müasir dövrün tələbləri səviyyəsində təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd olunub ki, muxtar respublikada sürətli poçt xidmətlərinin göstərilməsi üçün yaradılan əlverişli şəraitin nəticəsidir ki, daşımaların həcmi xeyli artıb.



Karqo şirkətləri yaradılan şəraitdən səmərəli istifadə etməli, xarici ölkələrdə şəxslər tərəfindən alınan malların karqolar vasitəsilə gətirilməsi təşviq olunmalıdır. Diqqətə çatdırılıb ki, sürətli poçt göndərişləri və onların çatdırılmasına, həmçinin qanunvericiliklə qadağan edilən malların daşınmamasına dair tələblər daim diqqətdə və nəzarətdə saxlanılmalı, gömrük məqsədləri üçün mal-müşayiət sənədləri düzgün təqdim olunmalı, malların gömrük sərhədindən sürətli formada keçirilməsi üçün əvvəlcədən düzgün bəyan-etməyə diqqət artırılmalıdır.

Komitənin Əməliyyat və təhqiqat şöbəsinin rəisi Mahir Orucov, Mobil gömrük şöbəsinin rəisi İbrahim Mahmudov, Sədərək gömrük postunun rəis əvəzi Turqut Abbasov karqo yüklərinin gömrük rəsmiləşməsi zamanı qarşıya çıxan problemlər və onların həlli yolları barədə məlumat veriblər. Tədbirdə karqo şirkətlərinin nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı müzakirələr aparılıb, yeni təkliflər dəyərləndirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilmişdir

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı tərəfindən 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş lektoriya keçirilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini – aparatın rəhbəri Anar İbrahimov bu əlamətdar tarixi günü Azərbaycan dövlətçiliyinin real müstəqilliyə qovuşması tarixinin başlanğıcı kimi səciyyələndirərək həmin gün əsası qoyulan müstəqil dövlətçilik strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini diqqətə çatdırıb.



"Heydər Əliyev və Milli Qurtuluş fəlsəfəsi" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli deyib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bütün həyatı və siyasi fəaliyyəti xalqımızın və dövlətçiliyimizin milli qurtuluş mübarizəsinin tarixi hesab olunmalıdır.

"Heydər Əliyev və Azərbaycanda gənclər syasəti" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin üzvü Gülxanım Orucova əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətindən bəhs edərək ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasətinin hər zaman xüsusi yer tutduğunu vurğulayıb.

* * *



*AMEA Naxçıvan Bölməsi və muxtar respublikadakı ali təhsil müəssisələrinin birgə təşkilatçılığı ilə "Milli Qurtuluş dövlətçilik tariximizdə" mövzusunda tədbir keçirilib.*

Tədbiri açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası" mövzulu məruzəsində ötən əsrin 90-cı illərinin əvvəllərindən ölkədə mövcud olan ictimai-siyasi vəziyyətdən, 1993-cü ilin 15 iyun tarixinin əhəmiyyətindən, dövrün və xalqın tələbi ilə hakimiyyətə gələn dahi rəhbərin həyata keçirdiyi siyasi strategiyadan, Azərbaycanın gələcək inkişafına hesablanmış məqsədyönlü addımlardan bəhs edib. Vurğulanıb ki, daim xalqı üçün çalışan ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası dahi şəxsiyyətin ideyalarına sədaqətlə xidmət edən ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ideyalarının ardıcıl davamından danışan akademik deyib ki, aparılan uğurlu siyasət sayəsində Azərbaycan, eləcə də onun tərkib hissəsi Naxçıvan Muxtar Respublikası inkişafının ən qüdrətli dövrünü yaşayır.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev "Siyasətdə varisliyin uğurlu formulu" mövzulu məruzəsində dahi rəhbər Heydər Əliyevin sahib olduğu liderlik bacarıqlarına diqqət çəkib. Müstəqillik dövründə qazanılan inkişafdan söz açan rektor informasiya cəbhəsində, diplomatiya və beynəlxalq hüquq sahəsində qazanılan uğurlardan, labüd Qarabağ zəfərindən danışıb, Zəngəzur dəhlizinin açılması ilə ölkəmizin türk dövlətlərini birləşdirmək missiyasını uğurla icra edəcəyini və Naxçıvanın buradakı mühüm əhəmiyyətini qeyd edib.

"Qurtuluşun çətin və məşəqqətli yolları" mövzusunda məruzə edən Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Azad Novruzov yenicə müstəqilliyini bərpa etmiş ölkəni inkişafa istiqamətləndirmək və xalqın gələcəyi üçün islahatlar aparmanın böyük siyasi bacarıq və əsl sərkərdə cəsarəti tələb etdiyini xatırladıb, belə mühüm missiyanın dahi rəhbər Heydər Əliyevə məxsus olduğunu bildirib.

"Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva "Qurtuluşdan başlanan inkişaf strategiyası" məruzəsində 15 iyun tarixini müstəqil Azərbaycan dövlətinin inkişafın yeni mərhələsinə qədəm qoyduğu gün kimi xarakterizə edib.

* * *

*Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası universiteti ərazi partiya təşkilatının təşkilatçılığı ilə "Heydər Əliyev: davamlı inkişaf strategiyasının müəllifi" mövzusunda tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, tarixə qızıl hərflərlə yazılan əlamətdar gündə ulu öndərin hakimiyyətə gəlişindən sonra ölkədə müstəqil dövlət təsisatları yaradıldı, demokratik prinsiplər bərqərar oldu, muxtar respublikanın inkişafı istiqamətində əhəmiyyətli addımlar atıldı.



Tədbirdə Tarix-filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarov "Milli Qurtuluş Günü dövlətçilik tariximizin şanlı və parlaq səhifəsidir" mövzusunda çıxış edib. I kurs magistrant Nelli Quliyeva ulu öndər Heydər Əliyevin Azərbaycanda apardığı uğurlu gənclər siyasətindən danışıb.

Yeni Azərbaycan Partiyası sıralarına yeni üzv qəbul olunan universitet tələbələrinə üzvlük vəsiqələri təqdim edildikdən sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi partiya təşkilatı tərəfindən keçirilən "Mənim Partiyam – Yeni Azərbaycan Partiyası" intellektual yarışının qaliblərinin mükafatlandırılması baş tutub. Komandalara diplom və hədiyyə təqdim edilib, həvəsləndirici yerə layiq görülənlər də diplomla mükafatlandırılıb.

*"Naxçıvan" Universitetində "15 iyun müasir tariximizin dönüş mərhələsidir" adlı lektoriya keçirilib.*

Universitetin rektoru, dosent Nurlana Əliyeva tədbirdə çıxış edərək Milli Qurtuluş Gününün Azərbaycanın müasir tarixinin ən əhəmiyyətli günlərindən biri olduğunu bildirib. Vurğulanıb ki, müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyi diqqətə çatdırılıb. Rektor ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, nizami ordu quruculuğu prosesinə başlanıldığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib.



Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov "XX əsrin 80-90-cı illərində Azərbaycanda baş verən siyasi hadisələr" mövzusunda məruzə edib.

Sonda iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

## Növbəti aktivlər təqdim edilib



Özünüməşğulluq proqramının icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 31 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib. Bu ailələrin üzvlərindən 18 nəfərin hər birinə 2 baş iribuynuzlu, 4 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 4 nəfərə otbiçən aqreqat, 3 nəfərin hər birinə 10 yeşik arı ailəsi və ləvazimatları, 1 nəfərə inkubator və quş tükü təmizləyən aparat, 1 nəfərə isə bərbər-manikürçü avadanlıqları və ləvazimatları verilib. Eyni zamanda təsərrüfatını nümunəvi inkişaf etdirən bir nəfər həvəsləndirmə tədbirlərinə cəlb olunub və ona arpa-buğda qıran aqreqat verilib. Sosial qayğıya ehtiyacı olan 6 ailə Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Banklar Assosiasiyası arasında bağlanmış memorandum çərçivəsində müvafiq aktivlərlə təmin olunub. Bu ailələrin üzvlərindən 1 nəfərinə kiçik dəmirçi sexi üzrə avadanlıqlar, 5 nəfərinə isə dərzi avadanlıqları və ləvazimatları verilib.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən isə 10 sosial qayğıya ehtiyacı olan ailənin özünüməşğulluq proqramına cəlb olunması təmin edilib. Bu ailələrin üzvlərindən 4 nəfərin hər birinə 2 baş iribuynuzlu, 5 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 1 nəfərə isə 10 yeşik arı ailəsi verilib.

15 İyun – Milli Qurtuluş Günü ərəfəsində aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev, sahibkar Namiq Novruzov çıxış ediblər.

Sonra yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub, vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

## Ümumtəhsil məktəblərində *"Son zəng"* tədbirləri olub

İyunun 14-də muxtar respublikanın ümumtəhsil məktəblərində "Son zəng" tədbirləri keçirilib. Tədbirlərdə çıxış edənlər təhsilə göstərilən dövlət qayğısından danışaraq bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində son illər muxtar respublikamızda təhsil infrastrukturu yaxşılaşdırılıb, təhsilin inkişafı üçün hərtərəfli şərait yaradılıb.

Qeyd olunub ki, ümumtəhsil məktəblərində tətbiq edilən müasir təlim metodları, o cümlədən STEAM təhsil metodu şagirdlərin gələcəyin xüsusi qabiliyyət və istedada malik, yaradıcı, yenilikçi və təşəbbüskar şəxsiyyət kimi formalaşmasına şərait yaradıbdır.



Diqqətə çatdırılıb ki, cari tədris ilində ümumi orta təhsil bazasından 4187 şagird, tam orta təhsil bazasından isə 2990 məzun məktəbi bitirir. Bu tədris ilində ümumtəhsil məktəblərini bitirən 2990 məzundan 2848-i, yəni məzunların 95,3 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul üçün sənəd verib.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada təkcə ümumtəhsil məktəblərində yox, eyni zamanda peşə, orta ixtisas, ali təhsil müəssisələrində də gənclərin hərtərəfli biliklərə yiyələnməsi üçün müasir tədris şəraiti yaradılıb.

Çıxış edənlər məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıblar.

Məktəblərin məzunları müəllimlərə minnətdarlıq edərək hər zaman öz uğurları ilə müəllimlərini sevindirəcəklərinə söz veriblər.

"Son zəng" tədbirlərində şagirdlərin hazırladığı bir-birindən maraqlı ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

**Xəbərlər şöbəsi**

*İtmişdir*

Naxçıvan şəhəri, İ.Məmmədov küçəsi, bina 46, ev 41-də yaşayan Abdullayev Fərhad Abdulla oğlunun adına olan 104011000162-05101-093002 nömrəli hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 527